NİZAMİ GƏNCƏVİNİN MİLLİ VƏ ƏDƏBİ KİMLİYİ: MÜBAHİSƏLƏR, HƏQİQƏTLƏR

Cəlal QASIMOV
Filologiya elmləri doktoru, professor
AMEA Folklor İnstitutu
filoloq@mail.ru

Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.
Heydər Əliyev

Nizaminin milli kimliyi

İnsanı kamil və azad, cəmiyyəti xoşbəxt, idarəçiliyi ədalətli, eşqi ilahi xarakterli görmək istəyən və əsərlərində bu keyfiyyətləri bəşəri ideala çevirən, fenomenal şəxsiyyət Nizami Gəncəvinin 800 illik yubileyində çıxış edən Rusiya Proletar Yazıçıları İttifaqının rəhbəri Aleksandr Fadayev (1901-1956) demişdir ki, "kim deyir Nizami Gəncəvi farsdır, kim deyir Nizami Gəncəvi azərbaycanlıdır yalandır, Nizami Gəncəvi rusdur". O, bu sözlərə gülən yubiley iştirakçılarına üzünü tutaraq deyir. "Dayanın, mən hələ sözümü bitirməmişəm. Gəlin görək dünyada ikinci bir Gəncə şəhəri varmı. Gəncə Azərbaycan şəhəridir. Deməli, Nizami Gəncəvi azərbaycanlıdır və azərbaycanlı olaraq qalacaqdır."

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, bəziləri N.Gəncəvini farslaşdırmaq üçün Gəncənin də XII əsrdə İran şəhəri olduğunu iddia edirdilər. Faktlar göstərir ki, həmin dövrdə nəinki Gəncə İranın, əksinə, İran Səlcuq dövlətinin bir hissəsi idi.

O zaman Səlcuqlar elə bir qüdrət sahibi idi ki, nəinki İran, hətta bir çox dövlətlər ondan çəkinirdi. Bu da inkar edilməz faktdır ki, həmin illərdə Gəncə Azərbaycan Atabəylərinin paytaxtı idi. Göründüyü kimi, Gəncənin İran şəhəri olması kimi

saxta uydurmalar elmi araşdırmalar qarşısında nəinki təsdiqini tapır, əksinə, əsassız olduğu isbata yetirilir.

Mətləbdən uzaqlaşmadan deməliyik ki, Nizami Gəncəvinin milli kimlik məsələsinə münasibət bildirən yazıçı Nikolay Tixonov isə 22 sentyabr 1947-ci ildə "Pravda" qəzetində nəşr etdirdiyi məqaləsində yazırdı: "Aydındır ki, Nizami farsca yazıb. Azərbaycan xalqının düşmənləri olan burjua tarixçiləri, İran milliyyətçiləri tərəfindən Nizaminin fars şairi kimi qələmə verilməsi və Azərbaycanla əlaqəsinin olmaması faktı ilk dəfə deyil, ancaq bu həyasız yalan heç kimi aldada bilmədi" (16).

A.Fadayev və ya N.Tixonovdan fərqli olaraq həmin illərdə bəzi sovet şərqşünasları Nizamini daha çox fars şairi kimi tanıyır və tanıdırdı. Belə sovet şərqşünaslarının siyasi konyukturasına əsas verən ən böyük amil isə mütəfəkkir şairin fars dilində yazması idi. Məsələlərə bu məntiqlə yanaşsaq, onda gərək VIII-XIV əsrə qədərki ərəb-fars ədəbiyyatından imtina edək və həmin ədəbi irsi ərəb-fars ədəbiyyatı, onların müəlliflərini isə milliyətcə ərəb və ya fars adlandıraq. Yəni belə olduğu təqdirdə "Divanilüğət-it-türk"ü ərəb elminin ən böyük əsəri, onun müəllifi Mahmud Kaşqarini isə ərəb adlandıraq. Məsələnin bu cür qoyuluşu elmi olmadığı üçün sadəlövh və gülməli görünür. Bu gün dünyanın bir çox ölkələri ingiliscə danışır və yazır. Məgər onlar ingilisdirlər? Əlbəttə, onlar ingilis deyil, sadəcə ingilisdillidirlər.

Göründüyü kimi, Nizami Gəncəvinin milli kimliyi məsələsi keçən əsrin 30-40-cı illərində dahi şairin 800 illik yubileyi ərəfəsində günün ən aktual problemlərindən idi. Təəssüf ki, Azərbaycan nizamişünaslığı milli kimlik uğrunda elm müstəvisində aparılan savaşda hələ də öz sözünü axıra kimi deyə bilməyib. Daha doğrusu, Nizaminin kimliyi məsələsini 800 illikdə olduğu kimi, ötən 80 il müddətində də mübahisə predmeti şəklində elmi dövriyyəyə gətirmək istəyənlər olub və var. Hesab edirik ki, 2021-ci ilin Prezident sərəncamı ilə "Nizami Gəncəvi ili" elan olunması bu problemin çözülməsi işinə də təkan verəcək, bir çox qaranlıq mətləblərin üzərinə işıq çiləyəcəkdir.

Yuxarıda deyilənlərdən aydın görünür ki, farslar və ermənilər, eləcə də bəzi tədqiqatçılar Nizami Gəncəvini əsasən fars dilində yazdığına görə fars, azərbaycanlılar və türklər, eləcə də bir çox elm adamları isə Gəncəli olduğuna görə azərbaycanlı adlandırmışlar. Fikrimizcə, hər iki arqumet (fars dilində yazmaq və gəncəli olmaq faktı) dünya şöhrətli şairin milli kimliyini müəyyənləşdirmək üçün o qədər də elmi məntiqə söykənən, tam əsaslandırılmış dəlil deyil.

Əvvəla, IX-XIII əsrlərdə Şərqin görkəmli simalarının hamısı fars dilində yazmışdır. Bunun əsas səbəbi fars dilinin poeziya dili olması ilə bağlı idi. Ona görə də bu dövrün mütəfəkkir şairlərini farsca yazdıqlarına görə fars kökənli elan etmək tamamilə yanlışdır. Onların böyük bir qismi fars şairi deyil, farsdilli şairdir. Hər hansı bir şairin yabançı bir dildə yazması onun milli kimliyinə dəlalət etmir.

Milli kimlik genetik kodla, əcnəbi dildə yazmaq isə daha çox düşdüyün mühit və şəraitlə bağlıdır. Akademik Teymur Kərimli "Nizami Gəncəvi dünya şöhrətli Azərbaycan şairidir" məntiqini tutarlı faktlarla sübuta yetirərək onu İran şairi kimi qələmə vermək istəyənlərə xitabən yazır: "Bəşər tarixində bir çox sənətkarların müəyyən obyektiv və subyektiv səbəblər üzündən öz doğma dilində deyil, həmin regionda işlək olan dildə yazması faktına tez-tez təsadüf etmək olar. Məsələn, çin dili orta əsrlərdə uzun müddət Koreya, Yaponiya və Vyetnamda ədəbi dil kimi işlənmişdir. XI-XII yüzilliklərə qədər Qərbi Avropa xaqlarının yeganə ədəbi dili latın dili olmuşdur. Bu proses indi də davam etməkdədir. Yaxın və Orta Şərqə gəlincə, burada VII-X əsrlərdə ərəb dili yeganə ədəbi dil olduğundan, etnik cəhətdən iranlı olan İbn əl-Müqəffə, əs-Səalibi, ət-Təbəri, eləcə də IX-X əsrlərdə ərəb xilafətinə daxil olan İran ərazisindəki Tahiri, Səffari dövlətlərinin saray şairlərindən Xureymi, Mütəvəkkili və başqaları öz əsərlərini ərəb dilində qələmə almışlar. Bu cəhət həmin sənətkarları heç də İran ədəbiyyatından ayırmaq üçün əsas ola bilməz. Həmin dövrdə "əl-Azərbaycani" nisbəsi ilə tanınan Azərbaycan şairləri də ərəb dilində yazmışlar. Buradan belə nəticə çıxarmaq olar ki, yalnız fars dilində yazdığına görə

Nizamini və orta əsrlər Azərbaycan poeziya məktəbinin başqa böyük nümayəndələrini "İran şairi" (fars şairi) adlandırmaq qətiyyən düzgün deyildir. Necə ki, yuxarıda adlarını çəkdiyimiz ərəbcə yazan farslar da ərəb ədəbiyyatına mənsub hesab olunmurlar" (13).

Deyilənlərə əlavə olaraq bildirməliyik ki, ən görkəmli şairlər bəzən öz təşəbbüsləri, bir çox halda isə hökmdarın sifarişi ilə əsərlər yazıblar. Verilən sifarişlərdə isə bir qayda olaraq poetik örnəklərin farsca yazılması tələb olunurdu.

Nizami Gəncəvi "Leyli və Məcnun" poemasında Axsitanın məktubunda yazdığı: "Bu təzə gəlinə çəkəndə zəhmət, Fars-ərəb diliylə vur ona zinət..." fikirlərinə daxili etirazını bildirir və üsyanını acizanə şəkildə belə ifadə edirdi:

Qulluq həlqəsinə düşdü qulağım,
Qan vurdu beynimə, əsdi dodağım.
Nə cürətim vardı ki, evdən qaçam.
Nə də gözüm vardı, xəzinə açam.

Həmin dövrdə Nizaminin və onun sələf və xələflərinin fars dilində yazması əsasən aşağıdakı amillərlə bağlı idi. Birincisi, fars dilinin Şərqdə poeziya dili olması. Vaxtı ilə görkəmli alim B.Çobanzadə yazırdı: "Nəvai zamanında Orta Asiya, Kiçik Asiya, Hindistan birləşib bir aləm meydana gətirmişdi ki, bu aləmin irqi nöqteyi-nəzərdən siyasi və idari rəhbəri türk-moğol, elmi və mədəni rəhbərləri ərəblə fars idi" (3, 227).

İkincisi, o dövrün kitabxanalarında (xüsusilə də saray və ya mədrəsə kitabxanalarında) fars və ərəbdilli ədəbiyyata daha çox üstünlük verilməsi. Bu dildə yazılan ədəbiyyatların şahların və vəzirlərin göstərişi ilə üzünün çoxaldılması, eləcə də digər ölkələrə (hökmdarlara) göndərilməsi də unudulmamalıdır. Bu, bir tərəfdən sənətkarın tanınmasına, digər tərəfdən isə onun əsərlərinin qorunmasına və gələcək nəsillərə çatdırılmasına zəmanət verirdi.

Yeri gəlmişkən qeyd etməliyəm ki, müəyyən qüvvələr Nizami Gəncəvini farslaşdırmaqda və bəzən də kürdləşdirməkdə olduqca maraqlı idi. Mən burada akademik Kamal Talıbzadədən eşitdiyim

bir faktı da elmi dövriyyəyə gətirmək istərdim. Bir dəfə Kamal müəllim dedi ki, Azərbaycan Elmlər Akademiyasında "Böyük Sovet Ensiklopediyası" üçün Nizami Gəncəvi ilə bağlı rus dilində oçerk hazırlanmışdı. Həmin oçerkdə Nizami Gəncəvi hər yerdə "Velikiy Azerbaydjanskiy poet" kimi göstərilirdi. Sözügedən oçerkdə Stepan Şaumyanın oğlu Serqo Şaumyanın təkidi ilə Nizami Gəncəvini "Velikiy persidskiy poet" kimi təqdim etməyə çalışırdılar, lakin həmin qüvvələrin bu çirkin niyyətləri baş tutmadı.

Fikrimizcə, Serqo da, rus şərqşünasları da başa düşüləndi. Onlar türkün böyük tarixə və mədəniyyətə malik olmasını qəbul edə bilmir və ya etmək istəmirdilər. Bu, rusların imperiya xislətindən, ermənilərin isə uydurma "Böyük Ermənistan" sayıqlamalarından qaynaqlanırdı. Çünki onlar (sovet imperiyası və ermənilər) özlərindən qədim heç kimi tanımır və tanımaq istəmirdilər.

Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin Bakıda abidəsinin qoyulması məsələsi də ermənilər qane etmirdi. Belə ki, 1941-ci il fevralın 17-də memarlar Sadıq Dadaşov, Mikayıl Hüseynov, Xalıq Əbdürrəhmanov və başqalarının, o cümlədən ermənilərin iştirakıyla Moskvada Nizaminin abidəsinin hazırlanması ilə bağlı layihə sənədlərinə baxılır. Bakıda Nizaminin heykəlinin necə olacağı mübahisə predmetinə çevrilir. Ermənilər və ermənipərəst qüvvələr israrla bildirirlər ki, əgər Nizaminin miniatür rəsmi yoxdursa, o zaman onun Azərbaycan türkü olduğunu təsdiq edən heykəli də müəmmalı olacaq. ("Xalq cəbhəsi" qəzeti. 2006, 29 iyul). Təəccüb doğuran odur ki, belə təxribatlar bu gün də davam edir. AMEA Mərkəzi Elmi Kitabxanasında Sərbəst İnformasiya Resursları şöbəsinin rəhbəri, araşdırmaçı jurnalist Elnur Eltürk dünyanın ən böyük onlayn ensiklopediyası olan Vikipediyada da belə təxribatlara yol verildiyini qeyd edir. O göstərir ki, Vikipediyanın rus dilində olan versiyası böyük Azərbaycan şairi Nizami Gəncəvini fars poeziyasının klassiki (классик персидской поэзии) kimi təqdim edib.

Məqalənin redaktə tarixçəsinə baxdıqda düzəliş edənlər arasında Taron Saharyan, Ankax Hayastan və Zara-arush adlı istifa-

dəçiləri görürük. Vikipediyadakı profillərdən Taron Saharyanın İrəvandan olduğu, digər iki istifadəçinin isə qondarma DQR-i dəstəklədiyi aşkarlanır. Redaktələr araşdırıldıqda təxribatın 2014-cü ildə edildiyi üzə çıxır (15).

Nizaminin milli kimliyi fars ədəbiyyatşünaslığında daha geniş vüsət almışdır. Belə ki, yalnız ayrı-ayrı tədqiqatlarda deyil, orta məktəb dərsliklərində də N.Gəncəvini fars ədəbiyyatının nümayəndəsi təqdim edirlər. İran alimlərindən Vəhid Dəstgerdi Nizamini "dahi İran-fars şairi", Səid Nəfisi "Nizami azərbaycanlı deyil, farsdır", Əliəkbər Şəhabi "Dastanyazan İran şairi" kimi dünyaya tanıtmağa çalışırlarsa, Ə.Zərrinkub "Nizamini fars ədəbiyyatının incisi" adlandırır. Yeri gəlmişkən qeyd etməliyik ki, fars, alman, amerikan, italyan, fransız, alban, ingilis, çin... alimlərindən ciddi tədqiqatları ilə onun türk-azərbaycanlı olması qənaətinə gələnlər də az deyil.

1930-1950-ci illərdə Nizaminin milli kimliyini gündəmə gətirən bir çox azərbaycanlı yazarlar da olmuşdur ki, bunlardan ikisi barədə qısaca bəhs açmaq istərdim. Onlardan birincisi Səməd Vurğun idi. Məlumdur ki, XII əsrin Axsitanı Nizamiyə, XX əsrin Qacarı isə Vaqifə türk dilində yazdıqlarına görə həqarətlə yanaşır. Hiddətini gizlədə bilməyən Nizami "Qulluq həlqəsinə düşdü qulağım, Qanvurdu beynimə əsdi dodağım", – deyirsə, Vaqif də "Sizin güldüyünüz çoban torpağı Nizamilər, Füzulilər yetirmiş", – deyir. Doğrudur, Qacar M.P.Vaqifə heç vaxt fars dilində yaz deməmişdir.

Səməd Vurğun 1930-cu illərdə N.Gəncəvini azərbaycanlı kimi təqdim etməklə elmi fikri xeyli qabaqlamışdır. Elmi fikirdə, həm də ümumtürk dünyasında faktlı və predmetli şəkildə, inandırıcı dəlil və sübutlarla Nizaminin türk olduğunu sübut edən Məmməd Əmin Rəsulzadə olmuşdur. Onun "Azərbaycan şairi Nizami" adlı fundamental kitabı (Azerbaycan şairi Nizami. Milli Egitim Basımevi, Ankara, 1951) dediklərimizə sübutdur.

Əlbəttə, bu siyahını uaztmaq da olar, lakin biz tədqiqatın qoyuluşuna uyğun olaraq yalnız birincilərdən – şairi fars elan edənlərdən bəhs açacağıq. Sözsüz ki, Nizamini farslaşdıran tədqiqatçılar mütəfəkkir şairin fars dilində yazdığına istinad edir və

məsələnin ciddiliyinə varmadan (bəzən isə vararaq) onun milli kimliyini danırdılar. Yuxarıda da dediyimiz kimi məsələ dil amili ilə bitmir, burada siyasi-ideoloji amillər və maraqlar da az rol oynamır. Bu məsələdə milli mənsubiyyət, milli və ədəbi kimlik amilləri mühüm əhəmiyyətə malikdir. Fikrimizcə, bunun üçün ən ciddi, mötəbər mənbə Nizami Gəncəvinin ədəbi irsidir. "Xosrov və Şirin" əsərində oxuyuruq:

"Türklüyüm bu Həbəşdə heç getmir.
Dadlı dovğaya xalq meyl etmir".

Bu misralarda türklüyündən qürurla söz açan şair bunu ötəri bir söz kimi deyib keçmir, onun bütün nəsil şəcərəsinə aid olduğunu da gizlətmirdi. Məsələn, bəzi mənbələrdə onun anasının kürd qızı olduğu iddia edilir. Lakin N.Gəncəvi bu xüsusda "Leyli və Məcnun"da belə yazırdı: "Gər madəri mən Rəiseyi-qord, madər sifatənə piş-e-mən mord". Yəni mənim anam Rəisə ana sifətində qarşımda dünyasını dəyişdi. Farslar bu "qord" sözünü kürd kimi qələmə verirlər, halbuki igid kimi anlaşılmalıdır. Bəzi mənbələrdə isə "qord", "qurd" kimi da işlənir ki, bu, türklərdə geniş yayılan "qurd" tayfası anlamını verir. Yəni Nizami özü də anasının türk qızı olduğunu etiraf edir.

Nizami Gəncəvi ata-babası haqqında daha konkret şəkildə belə deyirdi. "Pedər bər pedər mərməra türk bud" (Mənim ata-babam türk idi). Ata-babanın, zatın türk olması Nizaminin də türk-azərbaycanlı olmasına möhür vurur və onun milli kimliyini müəyyənləşdirir.

Nizaminin həyat yoldaşı haqqında da fikir ayrılığı vardır. Elmi mənbələrdə şairin üç dəfə evləndiyi bildirilir. Şairin ilk evləndiyi qadın Dərbənd hakiminin göndərmiş olduğu bir kəniz olmuşdur. Lakin o, Dərbənd gözəlinə – Afaqa kəniz kimi deyil, can yoldaşı kimi yanaşmış və onun erkən ölümü şairi çox sarsıtmışdır. N.Gəncəvi həyat yoldaşının (Afaq, Apağ, Appaq) milli mənsubiyyəti barədə yazırdı:

Səbokoru çon bot-e qefçağ-e mən bud,
Gəman oftad xod ke Afaq-e mən bud.

Şair aydın şəkildə göstərir ki, "Çevik getməkdə, san qıpça-

ğım idi, Sanardın ki, mənim Afaqım idi". Deməli, onun Afaqı da qıpçaq türklərindən idi.

Nizami Afaqdan olan oğlu Məhəmməd haqqında danışarkən ona "türküm" deyə xitab edirdi. Şair Allaha müraciətlə Afaqı "türküm", Məhəmmədi isə "türkzadə" adlandıraraq "Xosrov və Şirin" əsərində yazırdı:

Əgər şod torkəm əz xərgəh nəhani,
Xodayə, torkzadəmva to dani.
(Əgər türküm çadırdan gizlinə çəkildisə də,
Xudaya, türk balasını sən özün qoru.)

Deyilənlərdən aydın görünür ki, Nizami Gəncəvi təpədəndırnağa türk idi. Görkəmli nizamişünas alim, professor Rüstəm Əliyev Nizamini nəinki türk, türkçü adlandırırdı (14).

Nizamini əsassız olaraq fars və ya kürd adlandırmaq məntiqə sığmır. Hər hansı bir şəxsin milli kimliyini müəyyənləşdirən əsas amillərdən biri də sənətkarın ədəbi kimliyidir. Professor S.Rzasoyun dediyi kimi: "Nizaminin Azərbaycan xalqına və ədəbiyyatına mənsubluğu, yaxud məsələnin daha geniş aspekti kimi, onun milli və ədəbi kimliyi məsələsi tədqiqatçılardan bu problemin həllinin uyğun metodoloji modelinin tapılmasını tələb edir. Mövcud yanaşmalarda kifayət qədər ağıllı məqamlar, aktual tezislər, ciddi postulatlar olsa da, problemin həllinin metodoloji sistemi bugünə qədər ortaya qoyulmamışdır. Bu, bir məqalənin həll edəcəyi məsələ olmasa da, onun ümumi konturlarına toxunmaq, əsas tezislərindən bəhs etmək mümkündür.

...Bu məsələdə ilk növbədə milli kimliklə ədəbi kimliyin münasibətlərini aydınlaşdırmaq lazımdır. Çünki bunlar heç də həmişə bir-birini təsdiq etmir. Bu baxımdan: milli kimlik – yaradıcı şəxsin milli-etnik mənsubiyyəti; ədəbi kimlik – onun hansı milli-ədəbi maraqları təmsil etməsidir" (10, 9-10).

Nizami Gəncəvinin ədəbi kimliyi

Nizamişünas alim Nüşabə Araslı yazır ki, Nizami türkcə düşünüb farsca yazmışdır. Məhz ona görədir ki, Nizaminin və Xaqaninin

əsərlərini oxuyan fars münəffərləri qeyd edirlər ki, bu əsərlərdən "buye tork miyayəd", yəni bu əsərlərdən "türk qoxusu gəlir" (2, 6).

Maraqlıdır ki, bəzi İran alimləri də N.Gəncəvini farsca yazdığına görə fars şairi hesab etsələr də, "Əz asare-Nizami buye-türk miyayəd" ("Nizaminin əsərlərindən türk iyi gəlir") fikirlərini də söyləmək məcburiyyətində qalmışlar. Akademik Həmid Araslı isə bu xüsusda belə yazırdı: "Şairin kəndi soyuna, yəni türk xalqına böyük sevgisi bu xalqın zəngin folklorundan və ədəbi irsindən bacarıqla istifadə etməsi, əsərlərində türk kəlmələri kullanması, türk ata sözləri və deyimlərindən sık-sık istifadə etməsi onun türkcəyə tərcüməsini də kolaylaşdırmışdır" (1, 30).

Bunlar şairin milli kimliyinə deyil, ədəbi kimliyinə verilən qiymətdir. Yuxarıdakılar onu deməyə əsas verir ki, Nizaminin milli kimliyi ədəbi, ədəbi kimliyi isə milli kimliyini inkar etmir, əksinə tamamlayır. Şairin "Xəmsə"sində, xüsusilə də "Yeddi gözəl" və "İskəndərnamə"də türkə və türklüyə olan məhəbbət, türk obrazını yaradarkən ona xüsusi nəvazişlə yanaşması aydın şəkildə görünür. Bu da şairin türk təəssübkeşliyinin ifadəsidir. Lakin türkə xüsusi hörmət və nəvazişlə yanaşmaq Nizamiyi bütün türkləri həmişə və hər yerdə müsbət və ya bütün hallarda haqlı obraz kimi yaratmağa sövq etmir. Yeri gəldikcə o, kiçik adamların – Fitnənin, Kərpickəsən kişinin, Zahidin, qoca qarının... dili ilə dövrünün cahangirlərini tənqid atəşinə tutur, onları ədalətli olmağa dəvət edir. Məsələn, Nizami yaşlı bir qarının dili ilə türk hökmdarı Sultan Səncəri ədalətsiz işlərinə görə belə ittiham edir:

Dağ kimi ucalmışdı bir zaman Türk dövləti,
Sarmışdı məmləkəti ədaləti, şəfqəti.
Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san,
Demək, sən türk deyilsən, yağmaçı bir hindusan.

Bu cəsarətli və uzaqgörən qarı Sultan Səncər kimi qüdrətli bir hökmdarı ədalətli olmağa çağırır. Onu yaddaşa – keçmişə dönməyə, türkün qüdrətli sərkərdələrinin ədalətli idarə üsuluna qayıtmağa çağırır. Və göstərir ki, əks təqdirdə "sən türk deyilsən, yağmaçı bir hindusan". Deməli, Nizaminin nəzərində türk-

lər yağmaçı deyil, qurucu olmuşlar.

"İskəndərnamə" əsərində isə şair Şərqin fatehi olan İskəndəri Azərbaycana gətirərək, Bərdə hökmdarı Nüşabənin ağlı qarşısında baş əyməyə məcbur edir. Bunlar əsas verir deyək ki, N.Gəncəvi türkü və türkün dövlətçilik tarixini müdafiə edərkən onu kor-koranə həyata keçirmir, məsələlərə ayıq düşüncə ilə yanaşır. Kiçik adamların dili ilə şahları tənqid edir və ilk dəfə "şah qanundur" prinsipindən tamamilə uzaq olur və "qanun şahdır" tezisini irəli sürür.

Nizaminin əsərlərində milli mənsubiyyəti şərtləndirən formalardan biri də onun türk xalqlarının folklorundan geniş istifadə etməsidir. Şairin ədəbi kimliyinin formalaşmasında mühüm rol oynayan folklor iki istiqamətdə özünü qabarıq göstərir:

1) Nizamidə folklor;

2) Folklorda Nizami.

Əlbəttə, belə bir təsnifatı, bəlkə də, bir çox yazarlar haqqında demək olar. Lakin etiraf etməliyik ki, bu məsələ Nizamidə daha qüvvətli və daha zəngindir. Nizaminin folklora və folklorun Nizamiyə təsiri məsələsi arasına bərabərlik işarəsi də qoymaq olar. Əvvəl Nizami, sonra isə folklor Nizamidən faydalanmışdır. Bu qarşılıqlı faydalanmadan ustalıqla yararlanan isə böyük və mütərəqqi ədəbiyyatla yanaşı, yaxın və uzaq Şərq xalqları olmuşdur.

Nizamini fars adlandıranlar bilməlidir ki, "Xəmsə" fars dilində yazılsa da, orada Azərbaycan xalqına məxsus kifayət qədər atalar sözü, zərbi-məsəllər, aforizmlər, əfsanələr, əsatirlər, inanclar və inamlar... vardır. Bunu onun bütün əsərlərində heç bir araşdırma aparmadan asanlıqla görmək olur. Ona görə də bu məsələyə geniş yer ayırmağı lüzumsuz hesab edirəm.

Nizami Gəncəvi əsərlərində türk sözlərindən də geniş istifadə etmişdir. Tədqiqatçılar onun əsərlərində 120-dən çox türk sözü olduğunu qeyd etmişlər. şairin işlətdiyi "çul", "torba", "yaylaq, "qışlaq", "köç", "alaçıq", "dağ", "çirkin", "ancaq", "qırmızı", "dolma", "ələk", "çadır", "tutmac" "kömək", "tutuq", "bilək", "Tanrı" və başqa bu kimi ifadələr türk sözləridir.

Tanınmış tədqiqatçı alim İslam Sadıq yazır: "Ən maraqlı və əhəmiyyətli faktlardan biri də Bəhramın dilindən Allah sözünün əvəzinə Tanrı sözünün işlənməsidir ki, bunu heç vaxt nəzərdən qaçırmaq lazım deyil" (11, 84).

Məlumdur ki, Azərbaycan folklorunda, eləcə də "Kitabi-Dədə Qorqud" dastanında igid hakimiyyət kürsüsünə keçərkən və ya ad qazanarkən müəyyən qəhrəmanlıq göstərməli idi. "Yeddi gözəl" əsərinin qəhrəmanı Bəhram da hakimiyyətə gələrkən taxt-tacını iki şirin arasından götürür. O, hesab edir ki, ona bu gücü və qüdrəti verən Tanrıdır:

Şahlıqdan hiyləni tutmuşam uzaq,
Tanrı duyğusudur qəlbimə dayaq (7, 18).

Tanrı ərəb-fars təfəkküründə deyil, türk düşüncə tərzində, türk düşüncə sistemində geniş yayılan bir istilahdır. "Dədə Qorqud" eposundan əvvəlki və sonrakı mərhələlərdə şifahi xalq yaradıcılığında (hətta yazılı ədəbiyyatda da) geniş istifadə olunmuşdur. Bu, bir daha təsdiqləyir ki, hər hansı bir fars və ya ərəb şairi "Allah" sözünün yerinə türk mənşəli "Tanrı" sözünü işlətməzdi. Bunu Əbülqasim Firdovsi, Ömər Xəyyam və ya Sədi Şirazi deyil, yalnız Nizami Gəncəvi edə bilərdi.

Azərbaycan, eləcə də türk xalqlarının folklorundan bəhrələnmə Nizami "Xəmsə"sinin ilk əsəri olan "Sirlər xəzinəsi"ndə öz əksini tapmışdır. Bu bəhrələnmənin bir qismi əfsanə mövzuları ilə bağlıdır. Belə ki, şair poemanın "Firidun şahın ceyran ovu hekayəti"ndə (4, 129-130) Gəncə ərazisində məşhur olan "Qanlı daş" adlı əfsanənin (9, 50-52) motivindən istifadə etmişdir.

"Yeddi gözəl" poemasının mətnində isə "Dərbənd qalası", "Göyərçin əfsanələri", "Öncəqala əfsanəsi", "Göyərçinin ayağı niyə qırmızıdır" əfsanələrinin izlərinə rast gəlinir. "İskəndərnamə" əsərində "İskəndərin dirilik suyu axtarması" (8, 382) xalq arasında çox məşhur olan "İskəndər və Diri baba" əfsanəsinin məzmunu (9, 345-346) ilə səsləşir. Sadaladığımız nümunələrdən də göründüyü kimi, dahi şair əfsanə motivlərindən bacarıqla istifadə edərək əsərlərinə orijinal kolorit vermiş, kamil sənət nümunələri yaratmışdır.

Nizami yaradıcılığı Azərbaycan folklorunun tükənməz xəzinəsidir. Bu xəzinədə nəinki folklorun müxtəlif janrlarına, həmçinin xalqın mifoloji təfəkkürünün məhsulu olan obraz və motivlərə də rast gəlinir. Məsələn, "Xosrov və Şirin" poemasında "Şirinin ova getməsi və oradan Mədainə qaçması" hissəsində "Fatma nənənin darağı" rəvayəti fikrimizi əsaslandırmağa imkan verir:

Səndən bu əfsanə gizli qalmasın:
Bir gün cadugərlik edən bir qadın
Yoluna tulladı güzgü və daraq,
Daraq meşə oldu, güzgü də bir dağ.
Darağı, güzgünü tullayan arvad
Dağ və meşə kimi göstərər səbat! (5, 125)

"Fatma nənənin darağı" rəvayətində danışılır ki, Fatma nənə başını yuyanda yad adam görür. Darağını, güzgüsünü atıb, saçını üzünə tökür. Fatma nənə darağını atdığı yerdə ağac bitir, güzgü də dağa çevrilir. Ağacın yarpaqları Fatma nənənin darağına oxşayır. İndi də xalq sal daşlar üstdə bitən həmin diş-diş yarpaqlı ağaclara "Fatma nənənin darağı" deyir.

Türk mifologiyasında Fatmanın Humay ananın oxşarı olması haqqında bəzi faktlar diqqətçəkəndir. Humayın Fatma ilə əlaqəsi Azərbaycan əfsanələrində ağacla bağlıdır. Ağacın qoruyuculuq funksiyası Humaydan gəlir. Humay doğulan körpələri himayə edir. Burada daraq – meşənin simvoludur.

Nizaminin folklora və folklorun Nizamiyə təsiri məsələsi kifayət qədər geniş araşdırılmışdır. Akademik Həmid Araslının "Nizamidə xalq sözləri və xalq ifadələri" (SSRİ EA Azərbaycan Filialının xəbərləri, 1942, № 8). "Nizami və Azərbaycan xalq ədəbiyyatı" ("Nizami Gəncəvi" məcmuəsi, Bakı, 1947); Ə.Axundovun "N.Gəncəvi və xalq yaradıcılığı" (Azərbaycan SSR EA xəbərləri, 1954, № 2); Mübariz Əlizadənin "Nizami yaradıcılığında Azərbaycan folklorunun təsiri" ("Ədəbiyyat" qəzeti, 1938, 24 iyun); Sədnik Paşayevin "Nizami və folklor" (Bakı, 1976), "Nizami və xalq əfsanələri" (Bakı, 1983); Seyfəddin Rzasoyun "Nizami poeziyası: Mif-tarix konteksti" (Bakı, "Ağrıdağ", 2003),

eləcə də başqa sanballı tədqiqatlar və məqalələrdə "Nizami folklorda" və "Folklor Nizamidə" mövzusuna dair olduqca dəyərli fikirlər vardır. Ona görə də biz bu məsələnin üzərində geniş dayanmaq istəmirik. Bununla belə, Əli Şamilin və Aynur Qəzənfərqızının birgə hazırladığı "Naxçıvan folklor örnəklərində Nizami Gəncəvi əsərlərinin izləri" məqaləsi Nizaminin folklora və folklorun Nizamiyə təsirini öyrənmək baxımından olduqca maraqlıdır. Müəlliflər mövcud folklor örnəklərindən çıxış edərək Naxçıvan folkloru mətnlərində Nizaminin izi məsələsini kifayət qədər tutarlı dəlillərlə isbata yetirirlər. Onlar göstərirlər ki, "Nizami Gəncəvinin "Xəmsə"sində onlarla epik süjet olmasına baxmayaraq, "Xosrov və Şirin" poemasının qəhrəmanlarından Fərhadın adı ilə bağlı olan toponim və oykonimlərə Naxçıvan bölgəsində daha çox rast gəlinir" (12, 150). Fikrimizcə, Nizami irsinin bu aspektdə bölgələr üzrə araşdırılması onun ədəbi kimliyinin də daha dərindən öyrənilməsinə xidmət edəcəkdir. Və bu zaman məlum olacaqdır ki, Nizaminin xalq yaradıcılığı ilə əlaqəsinin izləri təkcə Naxçıvanda deyil, ümumtürk dünyasında, yaxın və uzaq Şərqdə, hətta bütün dünyada vardır. Vaxtı ilə o yazırdı:

Dünyada nə qədər kitab var belə,
Çalışıb əlləşib gətirdim ələ.
Oxudum, oxudum sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.

"Xosrov və Şirin" poemasınında isə bunları oxuyuruq:

Ruha xoş gəlsə də bu gözəl dastan,
Pərdədə qalmışdı bu gəlin çoxdan.
Tanıyan yoxdu bu gözəl almazı,
Bərdədə idi onun bir əlyazması.
O ölkənin qədim tarixlərindən
Tamam bu dastanı öyrənmişəm mən!

Dünyada olan kitab, əlyazma, eləcə də xalq incilərini ələ keçirən və onlardan elə dünyanın özü üçün əlamətdar sayılacaq qədər möhtəşəm əsərlər yazan Nizaminin izi də hər bir qütbdən, hər bir bucaqdan, kainatın hər bir nöqtəsindən görünməlidir və görünür də!

Son olaraq qeyd etməliyik ki, Nizami Gəncəvi milliyyət olaraq Azərbaycan şairi olsa da, milli-ədəbi kimlik baxımından türk maraqlarını təmsil etsə də, onun yaradıcılığını Azərbaycan, hətta ümumtürk coğrafiyasında məhdudlaşdıra bilmərik. Sözün geniş mənasında Nizami Gəncəvi bəşəri ideyaları ilə dünya şöhrətli şairdir.

QAYNAQLAR

1. Araslı H. Gülşəhri və Gəncəli Nizami. Türk Tarix Qurumu Basımevi, 1968
2. Araslı N. Nizami və türk ədəbiyyatı. Bakı, Elm, 1980
3. Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə, II cild, Bakı, Şərq-Qərb, 2007
4. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı, "Lider nəşriyyat", 2004, 264 s.
5. Gəncəvi N. Xosrov və Şirin. Bakı, "Lider nəşriyyat", 2004, 392 s.
6. Gəncəvi N. Leyli və Məcnun. Bakı, "Lider nəşriyyat", 2004, 288 s.
7. Gəncəvi N. Yeddi gözəl. Bakı, Azərnəşr, 1940
8. Gəncəvi N. İskəndərnamə. Şərəfnamə. Bakı, "Lider nəşriyyat", 2004, 432 s.
9. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı, Azərnəşr, 2009, 427 s.
10. Rzasoy S. Nizami Gəncəvinin milli və ədəbi kimliyi haqqında / Nizami Gəncəvi və folklor. Tərtib edəni S.Rzasoy. Bakı, "Nurlan", 2013, 214 s.
11. Sadıq İ. Türk folklorunda və Nizami Gəncəvinin "Yeddi gözəl" dastanında qoruyucu tanrı obrazı / Nizami Gəncəvi və folklor. Tərtib edəni S.Rzasoy. Bakı, "Nurlan", 2013, 214 s.
12. Şamil Ə., Qəzənfərqızı A. Naxçıvan folklor örnəklərində Nizami Gəncəvi əsərlərinin izləri / Nizami Gəncəvi və folklor. Tərtib edəni S.Rzasoy. Bakı, "Nurlan", 2013, 214 s.

İnternet resursları

13. http://www.science.gov.az/news/open354
14.https://aztehsil.com/news/3534-nizami-gncvi-fars-airidir-faktlar.html
15. https://teleqraf.com/news/toplum/190160.html
16.https://www.gancapost.info/dunya-aliml-ri-nizami-g-nc-vi-haqda-turkdur-faktlar-h2218.htm